**“Ədalət”**.-2011.-8, 9 dekabr.-№223, 224.-S.5

## AZƏRBAYCAN YAZIÇILARIN XII QURULTAYI QARŞISINDA

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA FOLKLORİZM

Qədim və zəngin yaradıcılıq ənənələrinə malik Azərbaycan ədəbiyyatı özünün tarixi törəniş və inkişaf mərhələlərində bir sıra mühüm dünyagörüşlər, dinlər, təriqətlər, yaşayış qaydaları, əxlaq normaları, ədəbi üslublar, cərəyanlar və məktəblərlə üz-üzə qalmış, özünün formalaşmasında şərq qaynaqlarından bəhrələnməklə uzun inkişaf yolu keçmişdir. İstər ərəbdilli, istər farsdilli, istərsə də anadilli ədəbiyyatımızın yaranma və yüksəliş tarixinə nəzər yetirdikdə onun forma, mövzu, məzmun, üslub, sənətkarlıq dəyərlərinin, zəngin etik-estetik, mənəvi-əxlaqi normalarının, yaradıcılıq ənənələrinin Şərqlə bağlılığının şahidi oluruq. Əski Şərq qaynaqlarından süzülüb gələn bu dəyərlərin sırası geniş olduğu kimi çeşidi də müxtəlif və rəngarəngdir. Onların önündə gedərək bir-biri ilə sıx bağlı olub müvazi şəkildə dünya ədəbi prosesinə yoldaşlıq edənləri isə alleqoriya, satira, semiotika, diskussiya və folklorizm ənənələridir. Onların hər biri dünya ədəbi-bədii fikrinin yaranma, formalaşma mərhələsində onun yanında olmuş, daim bu yaradıcılığın mövzu, məzmun, süjet, obrazlar silsiləsi, sənətkarlıq dəyərləri ilə zənginləşməsinə bu və ya digər dərəcədə öz müsbət təsirini göstərmişdir. Təbii ki, dünya ədəbiyyatı müxtəlif xalqların geniş, rəngarəng yaşam tərzini, dünyagörüş və psixologiyasını fərqli və özünəməxsus çalarlarda əks etdirdiyi kimi, ayrı-ayrı sənətkarlar da mənsub olduğu xalqın, millətin, etnik qrupun, azlıqda qalan, adı tarix səhifəsindən müxtəlif səbəblərlə bağlı silinməkdə olan, yaxud ölkəsi, torpağı işğal edilən, zorakılıqlara məruz qalan, koloniya həyatı yaşamağa məhkum edilən xalqların milli dəyərlərini öz bədii əsərlərində folklorizm çevrəsində əks etdirməklə qoruyub saxlaya, nəsillərin yaddaşına ötürə bilmişlər. Rabindrant Taqor, Pavlo Neruda və başqa sənətkarların yaradıcılığında olduğu, yaxud xalqının alt qat ədəbi düşüncəsini əsərlərində qüdrətli saxlanca çevirib tarixin yaddaşına ərməğan etdiyi kimi... Firdovsinin "Şahnamə"sində, Nizaminin "Xəmsə"sində, M. Füzulinin "Şikayətnamə"sində gördüyümüz kimi. Bu ənənəni dünya ədəbiyyatının korifeyləri Servantesin, Dantenin, Molyerin, Şekspirin, Bayronun, Heynenin, Tolstoyun, Puşkinin və bir çox digər sənətkarların yaradıcılığında da görmək mümkündür. Ancaq bu sənətkarların hər birinin yaradıcılığında folklorizm fərqli modellərdə və görüntülərdə əks edildiyindən onların bəhrələndiyi Şərq müdrikliyi qaynaqlarının izləri demək olar ki, silinib getməkdədir. Daim öz eqoizmi ilə fərqlənən Qərb Şərqdən mədəni dəyərlər iqtibasını etiraf etsə də, bütövlükdə bu dəyərlərin özlərinə məxsus düşüncə modelində işlənməsində israrlıdır. Şərqdən iqtibas edilən mədəni dəyərlərin Qərb süjetləri ilə istər genetik, istərsə də məntiqi-linqvistik oxşarlıqlarının ilə hələ kifayət qədər tarixi xronoloji ardıcıllıqla öyrənilib başa çatdığına, onların sivilizasiya dəyərlərinin formalaşmasından çox-çox sonrakı dövrlərdə Qərbə transfer edildiyinə qəti hökm vermək hələ ki, ımkan xaricindədir. Ancaq dünyanın yeni nizamının - qloballaşmanın böyük sürətlə ərzə yayılması sivilizasiya dəyərlərinin yaranma və transfer tarixi məsələləri ətrafındakı ziddiyyətlərin, yaradanlarla iqtibas edənlər arasında yeni ədalətli, tənzimləyici münasibətlərin formalaşacağına, əksliklərin və ziddiyyətlərin aradan qalxacağına ümidlər artmaqdadır. Güman edilir ki, qloballaşma dünya ədəbi prosesinə də böyük yeniliklər gətirəcək, milli kökə və milli Mənə cəsarətli yeni qayıdışlar baş verəcəkdir. Bu isə müstəqilliyini yenidən bərpa etmiş, onun "daimi və əbədi olması" yolunda böyük əzmlə mübarizə aparan xalqımızın ədəbi fikir tarixində yeni bir ədəbiyyatın - neomodernist ədəbiyyatın qəti şəkildə formalaşmasına və yüksəlişinə təkan verəcəkdir.

Bu ədəbiyyat dünya ədəbi prosesinə mühüm yeniliklər bəxş edəcək, xalqların ədəbi düşüncəsində məxsus olduğu dəyərlərə sıçrayışlı qayıdışlara gətirəcək, hər cür nüfuz mübarizələrindən, mənəmlik ambisiyalarından uzaq olacaq, insan talelərini səfərbər edərək izmlər tabeçiliyinə vermək iddialarından kənar, azad insanın azad ədəbiyyatı olacaqdır. Bu, Azərbaycan ədəbiyyatından da yan keçməyəcək, ona bir sıra fərqli düşüncə modelləri gətirəcəkdir ki, bunun sayəsində də ölkəmizdə neomodernizm ədəbiyyatımızın yeni yaradıcılıq metodu kimi formalaşacaqdır.

Təbii ki, ölkəmizdə formalaşmaqda və yüksələn xətt üzrə inkişafda olan "Neomodernist" ədəbiyyatın xüsusiyyətləri, yaranma səbəbləri, inkişaf istiqamətləri barədə ayrıca danışmağa ehtiyac olduğunu, onun ədəbiyyatımızda artıq bir sıra dəyərli nümunələrinin mövcudluğunu nəzərə alaraq bu ədəbiyyatın yaranmasına təsir edən amillərdən, ötən əsrin 60-cı illərində meydana çıxan ədəbiyyatla bağlılığı, eləcə də onun başlıca komponentlərindən olan alleqoriya, semiotika, satira və diskussiya sənətinin folklorizmlə əlaqəsindən ilk öncə söz açmaq yerinə düşər.

Ədəbiyyatşünaslıq elmində, xüsusən folklorşünaslıqda şifahi bədii düşüncənin əski layı olan mifologizm

adətən folklorizmlə qarşı-qarşıya qoyulur, yaxud da yanlış olaraq o, folklorizmdən əvvələ keçirilir. Məlumdur ki, folklor yaradıcılığı insanın intuitiv duyğularının şüurlu düşüncəyə qədəm qoyduğu psixoloji dərketmə prosesində meydana gəlmişdir və deməli, ilk psixoloji dərketmə paradiqmaları olan ruh, yuxu, mif və kiçik janr nümunələri folklor yaradıcılığı tərkibində yaranıb formalaşmışdır. Mif və mifoloji düşüncə folklorun daha arxaik saxlancı olub ilk folklor yaradıcılığı hadisələrindəndir. Təbii ki, bu, ayrıca diskussiya obyekti olub bir çox başqa xalqların folklorunda olduğu kimi bizdə də özünəməxsus inkişaf xüsusiyyətlərinə malikdir.

Azərbaycan ədəbiyyatında folklorizm dəyərlərinin əksinin isə elə də yaxın olmayan tarixi vardır. İlk öncə bu dəyərlər ədəbiyyatımıza Yunan mənbələrindən, qədim alban-zərdüşt qaynaqlarından, ərəb xalq nəsrindən, xüsusən lətifəçilikdən və kiçik janr paradiqmalarından baş alıb gəlir. Sonrakı dövrlərdəki təsir isə yenə ərəb şeiri, və ərəb mifoloji qaynaqları, əruz silsiləsindən gəlmə örnəklərlə bağlı olmuşdur. Güclü nüfuzedicilik xüsusiyyətinə malik lətifəçiliyin folklorizmlə çarpazlaşması ədəbi fikrin yüksəlişində mühüm rol oynamışdır. IX əsr ərəb xəlifəsi Harun ər-Rəşidin hakimiyyəti illərində folklorizmin bədii düşüncədə əsaslı şəkildə satiraya söykənməsi Bəhlul Danəndə lətifəçiliyini formalaşdırmış və bu yaradıcılıq ənənəsi dövrün ədəbiyyatında bir neçə yüzillik ərzində öz aparıcı mövqeyini qoruyub saxlaya bilmişdir.

XI-XII yüzilliklərdə Ə. Xaqani, N. Gəncəvi kimi qüdrətli sənətkarların yaradıcılığı xalq qaynaqlarından gəlmə dəyərlərlə zənginləşdi. Həmin dövrlərin ədəbiyyatında satira mətnaltı məzmuna keçməklə kəskin tərbiyəedicilik funksiyasında özünü daha çox göstərə bildi. Ədalətə, idarəçilikdəki zorakılıq və özbaşınalıqların aradan qaldırılmasına çağırış, hökmdarların islahı ədəbi düşüncədə ön plana keçdi. XIII yüzillikdən başlayaraq şifahi yaradıcılıqda satirik ənənənin güclənməsi nəzərə çarpacaq dərəcədə yüksəldi və elə həmin yüzilliyin başlanğıcından Nəsirəddin Tusinin adı ilə bağlı yeni dövr lətifəçilik məktəbi formalaşdı. Onun Təbriz, Sərab, Şirvan, Şəki, Qarabağla yanaşı, türk ellərində analoji adlar altında çoxsaylı mühitləri meydana çıxdı. Azərbaycan ədəbiyyatının bütün sonrakı dövr inkişaf mərhələlərində bu xalq nəsri modeli güclü satira, ənənəvi folklorizm çevrəsində ədəbi düşüncənin yüksəliş yollarını şəfəqləndirdi.

Bu dövrlərdə folklor süjet, motiv və obrazlarından istifadə genişləndi, ayrı-ayrı sənətkarlar ibrətamiz xalq əhvalat və hekayətlərindən, müdrik paremik vahidlərdən istifadə təcrübəsini artırmaqla ənənəvi folklorizmin mükəmməl qəliblərini formalaşdırdı ki, o da ədəbiyyatımızın bütün sonrakı mərhələlərindən günümüzə qədər ədəbi düşüncəyə yoldaşlıq etdi.

Folklorizmin inkişaf yolunun heç də həmişə hamar və rəvan olduğunu təbii ki, demək olmaz. Müxtəlif yüzilliklər dolabında ayrı-ayrı idarəçilik sistemlərinin, eləcə də ayrı-ayrı şahların, hökmdarların yaratdıqları saray mühitləri və məddahları daim ədalətli sözün, tənqidi yanaşmaların qənimi olmuş, mətnaltı işarələrin və eyhamların işığından qorxub haqqı, ədaləti müdafiə edənlərə qarşı ən amansız cəzalara fitva vermiş, yalançı din xadimləri, harun məmurlar haqq söz sahiblərini diri-diri divarlara hördürmüş, torpağa basdırmış, orta əsrlərin ən ağır inkvizisiya cəzalarına məhkum etmişlər. Bütün bu kimi təqiblərə, işgəncə və təzyiqlərə baxmayaraq ədəbiyyatımız zaman-zaman cəmiyyətin bütün bu kimi təzad və ziddiyyətlərinə biganə qalmamış, xalqa qarşı yol verilən ədalətsizlikləri müxtəlif ədəbi formalarda əks etdirmiş, hakim zümrələri folklorizm görüntüləri çevrəsində islaha, ədalətə çağırmışdır. XVI yüzillikdə M. Füzuli yaradıcılığında ənənəvi folklorizm milli Mənin daha dərin qatlarına nüfuz etməklə əlamətdar olmuşdur. Semiotika - işarələr sənəti ilə diskussiya və alleqoriyanın məharətli sinkretizmindən yaranan ənənəvi folklorizm ədəbi düşüncənin dərin qatlarındakı baxışları mənəvi dəyər kimi üzə çıxardı. Füzuli qəzəli daha dolğun və mükəmməl sənətkarlıq tələblərinə uyğun olaraq orta əsr folklorizmini formalaşdırdı. Burada kədər də, qəm də, məhəbbət də, hicran da vardı. Orta əsrlər Şərqinin ən dramatik psixoloji düşüncəsini böyük sənətkar özünün ölməz "Leyli Məcnun"unda olduğu kimi, yüksək islami dəyərlərə ehtiramını "Hədiqətüs-Süəda"ya əlavələrində, ədalətsizliklərə etirazını isə "Şikayətnamə"də və orta əsr folklorizminin aynası olan alleqoriyasında əks etdirə bildi. M. Füzuli qüdrətli poeziyasında yaratdığı folklorizmlə Şərq əxlaq, birgəyaşayış və davranış normalarının yeni qəliblərini cəmiyyətə təqdim etdiyi kimi, qəm karvanı yükünün daşıyıcısı olan yeni məhəbbət modelini də formalaşdırdı. Cənnət, cəhənnəm, axirət, ədalət, həqiqət, doğruçuluq, yaxşılıq və yamanlıq kimi dəyərlərin. düşüncənin alt qatına məxsus görüntülərini xalqa bəyan etdi. Şair orta əsr fanatizminin ağrılarına da laqeyd qalmadı, onun bütün eybəcərliklərinə yüksək ifşaedicilik mövqeyindən mətnaltı və mətnüstü məzmunda aydınlıq gətirə bildi.

Azərbaycan ədəbiyyatı qədim və orta əsrlər dolabını güclü ənənəvi folklorizm çevrəsində aşaraq sonrakı yeni dövr mərhələsinə qovuşdu. Yeni dövrün ədəbi normaları folklorizmi silsilə dəyərlərlə zənginləşdirdi. Canlı xalq dilinin ədəbiyyatda ön mövqeyə çıxması aşıq yaradıcılığında baş verən intibah anadilli ədəbiyyatın sürətli yüksəlişinə təkan verdi. M.P. Vaqif və M.V. Vidadi poeziyasında milli dəyərlərin, real gözəlliklərin, elat həyatının, eləcə də milli psixoloji düşüncənin poetik tərənnümü folklorizmin yeni tipi olan elat folklorizmini üzə çıxardı. O öz

sələflərindən aşağıda göstərilən aparıcı keyfiyyətləri ilə fərqləndi: klassik poeziya qəliblərinin xalq şeiri əsasında yeniləşməsi, heca vəzninin əruzu üstələməsi, aşıq şeiri şəkillərindən yazılı ədəbiyyatda istifadə edilməsi, diskussiya sənəti modellərinin - deyişmə, güllü qafiyə poetik qəliblərində folklorizmin yeni ifadə formalarının üzə çıxması, anadilli şeirin sənətkarlıq baxımından yeni yüksəlişi, canlı xalq dili hesabına ədəbi dilin zənginləşmə prosesinin güclənməsi və s.

Bu dövrdə ədəbi düşüncənin alt və üst qatlarında tarixən yaranıb qorunan elat həyatı görüntülərinin milli dəyər kimi folklorizm çevrəsində əksi də kifayət qədər nəzərə çarpan oldu. Onun soy kökü ilə bağlı dəyərlərinin zamanın gerilik, cəhalət görüşləri ilə qarşılaşması qabaqcıl maarifçi baxışların əhatəsini genişləndirdi ki, bu da elat folklorizminin aparıcı xüsusiyyətlərindən biri kimi ədəbi prosesə nüfuzedici təsirini göstərməklə ədəbiyyatda satirik üslubun güclənməsində əsaslı rol oynadı, folklorizmin ədəbiyyatımızda çoxpilləli və çoxmərhələli məzmununu zənginləşdirdi və XVIII yüzilliyin milli ədəbi həyatında yeni maarifçi meyllərin inkişafına öz töhfəsini verdi.

XIX yüzillikdə M. F. Axundzadə özünün məşhur komediyaları və "Kəmalüddövlə məktubları" ilə qabaqcıl maarifçi görüşləri kəskin tənqidi satirik məzmunda təqdim etməklə yanaşı, həm də ədəbi həyata dolğun ictimai-siyasi məzmun gətirdi. "Aldanmış Kəvakib"lə folklorizmin bakirə modelində həyatı dəyişməyin yeni formatını biçimlədi. Bu, bütün sonrakı onilliklərin ədəbi prosesində demokratik dəyərlərin ana qaynağı oldu, milli zəmində bir sıra qabaqcıl demokratik fikirlərlə ədəbiyyatımızı zənginləşdirdi. Öz dövrü üçün bu, folklorizmin yeni keyfiyyəti idi və iyirminci yüzilliyin ilk onilliklərində M. Ə. Sabirin inqilabi satirasının, M. Hadi, A. Səhhət və H. Cavid romantizminin, C. Məmmədquluzadə və Ə. Haqverdiyevin maarifçi-demokratik görüşlərinin meydana çıxmasında folklorizmin mühüm tarixi nailiyyəti idi. Həm də o, çoxpilləli və çoxmərhələli səciyyə daşımaqla ədəbiyyatın sonrakı inkişafına öz təsirini qoruyub saxlamaqda idi.

Ötən əsrin başlanğıcında M.Ə. Sabir poeziyasında özünü göstərən folklorizm sonrakı illərdə C. Cabbarlının yaradıcılığında analoji modelini qoruyub saxlamaqda idi.

Ancaq 30-cu illərin əvvəllərindən onun tənəzzül mərhələsi başladı. Azərbaycan xalqına qarşı məlum yasaq və qadağaların qoyulması - ilk öncə əlifba dəyişikliklərinin davam etdirilməsi, xalqın öz soy kökündən və islamdan uzaqlaşdırılmasına istiqamətləndirilən silsilə tədbirlərin həyata keçirilməsi ilə ədəbi düşüncədə milli dəyərlərin arxa plana keçirilməsi, sosialist realizmi yaradıcılıq metodunun zorakı təbliği və tətbiqi ədəbiyyatın folklorizmdən təmizlənməsinə yönələn ciddi təzyiqlərdən idi.

Çox keçmədən yeni yaradıcılıq metodunun ədəbiyyatda aparıcı mövqeyə keçməsi ilə barışmayan, onu qəbul etməyən sənətkarların bəziləri mühacirətə üz tutdu, bir çoxu qələmini yerə qoyub ədəbiyyat meydanından uzaqlaşdı, başqa böyük bir qismi isə repressiyalara məruz qalaraq ölümə məhkum edildi, sürgün həyatı yaşamalı oldu. Sosializm realizmi metoduna əsaslananlar isə cəmiyyət həyatının bu ağrıları üzərindən "iri addımlarla" irəliləyərək böyük "sovet üçbucağı"nda yeni bir ədəbiyyatın - sovet ədəbiyyatının yaranıb formalaşmasına nail oldular. Şübhəsiz ki, sosializm realizmi ədəbiyyatı dəyişən dünyanın yeni ədəbiyyatı idi. Onun bir sıra tarixi nailiyyətləri inkaredilməz olduğu kimi, bir çox dəyərli silsilə məziyyətləri də ədəbiyyat tarixinin ən şanlı səhifələri kimi özünə əbədiyaşar həyat qazanmışdır. Bütün bunlar barədə hörmətli qələm dostum, görkəmli ədəbiyyatşünas alim, Xalq yazıçısı Elçin "Ədəbiyyat qəzeti" səhifələrində kifayət qədər aydın, ətraflı, əsaslı faktlara söykənməklə özünün dəyərli mülahizələrini oxuculara təqdim etmişdir. Biz bu deyilənləri təqdir etməklə müəllifin belə bir mülahizəsi ilə də tam şərikik ki, sosialist realizminin yeni ədəbiyyatın yaranmasındakı böyük, əzəmətli rolunu bütün təfərrüatı ilə araşdırıb üzə çıxarmalıyıq. Bu mənada Elçinin diqqət önünə çəkdiyi sosialist realizminin milli zəmində yaranıb inkişaf edən ədəbiyyatımıza göstərdiyi neqativ təsirlərdən də müxtəsər söz açmağı vacib hesab edirik.

Əvvəldə qeyd edildiyi kimi, ədəbiyyatımızın ənənəvi inkişafının milli məişət həyatımızın, əxlaqi dəyərlərimizin əhatəli və rəngarəng folklorizm görüntüləri çevrəsində əksinin çoxəsrlik tarixi vardır. Bu ənənə yüzillikləri adlayıb günümüzə gəlib qovuşmuşdur. O, bu gün ədəbiyyatımızda öz tarixi rolunu yeni formada, təzə ölçü və qəliblərdə bərpa etməkdədir. Elçinin sosialist realizmi barədə mülahizələrindən aydın görünür ki, həqiqətən onun bu gün ayrıca öyrənilməsinə xüsusi ehtiyac vardır.

Etiraf etmək gərəkdir ki, bu metodun ölkəmizdə öncül mövqeyə keçməsi ilə ədəbi düşüncəmizdə folklorizm ənənələrinin tükənməsi genişləndi. Əslində bu, xalqımızın öz tarixindən qopardılıb manqurdlaşdırılması, onun ölkəmizin ərazisinə nə vaxtsa yaxın keçmişlərdə gələn, soy kökü olmayan bir etnos kimi təqdim edilməsi məqsədi daşıyırdı. Bu mürtəce siyasət isə əslində XIX yüzilliyin başlanğıcında çar Rusiyasının ermənilərə himayədarlığının məntiqi yekunu idi. XX yüzillikdə də imperiya siyasətçiləri və onların sonrakı xələfləri onun ardıcıl davamçıları kimi çıxış edərək xalqımızın dədə-baba torpaqları olan İrəvan xanlığı ərazisində erməni dövlətini yarada bildilər.

Sovetlər dönəmində sosialist realizmi çevrəsində formalaşdırılan ideoloji tələblər əslində imperiya

siyasətçiləri dəsti-xəttinin yeni tarixi şəraitdəki ənənəvi davamı idi. O, sosialist həyatının ədəbiyyatımızda bərli-bəzəkli, ziddiyyətli və təzadlı təsviri fonunda milli dəyərləri arxa plana keçirməklə tək Azərbaycan ədəbiyyatında deyil, keçmiş SSRİ tərkibinə daxil olan xalqların ədəbiyyatında milli-mənəvi və əxlaqi dəyərlərin mühüm ifadəçisi və qoruyucusu olan folklorizmin əsaslarını sarsıtmış oldu. Müharibədən əvvəlki dövrdə bir sıra sənətkarların, xüsusən S. Rəhimovun, S. Rüstəmin, M.S. Ordubadinin və başqalarının yaradıcılığında follklorizm detalları gözə çarpan olsa da, bütövlükdə ədəbiyyatımızda onun bərpasından danışmaq təbii ki, mümkün deyildi. Böyük Vətən müharibəsi illərində bu süqut bir qədər səngisə də əvvəlki müvazinətini xeyli müddət bərpa edə bilmədi.

60-cı illər ədəbiyyatının yaranmasında xidmətləri olan sənətkarlardan biri Xalq yazıçısı Anardır. Anar ədəbi düşüncənin alt və üst qatlarında qorunub saxlanan folklorizm dəyərlərinin ilk öncə görünən laylarını müasirlərinin həyatında aşkarlayaraq üzə çıxarmış, onları yeni sənətkarlıq meyarları ilə cilalayaraq milli Mənə məxsus əxlaqi dəyər kimi cəmiyyətə təqdim edə bilmişdir. "Dantenin yubileyi" və "Yaxşı padşahın nağılı"ndan başlayaraq "Təhminə və Zaur"a qədər insan taleyi və faciəsinin görüntülərini dövrün ədəbiyyatında özünə qədər görünməyən düşüncə ölçülərində obrazlaşdıra bilmişdir. Bu nümunələrdə Mirzə Cəlil üslubunun təsiri aydın görünməkdədir. Nisbətən sonralar qələmə aldığı "Təhminə və Zaur"da isə Anar əksliklərin və ziddiyyətlərin milli məzmunda təqdimində daha irəliyə gedir. Daha qlobal düşüncə laylarına enir. Cəmiyyət həyatının uzun zaman açıqlana bilməyən "duyğu saxlancı"nı gündəmə gətirir, insan taleyinin bu qapalı saxlancının sevgi, həsrət, iztirab, ayrılıq, uğursuzluq, bədbəxtlik, yalançı, qərəzli səmimiyyət, xəyanətkarlıq və sairə kimi çoxmərtəbəli və çoxpilləli qatlarına işıq salır, bunların hamısını insan taleyi ilə bağlı acılı-şirinli düşüncə kimi ürək yanğısı ilə oxucusuna təqdim edir. Əslində Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" əsərinin folklorizmi elə bu düşüncənin bir-biri ilə üz-üzə gəldiyi altıncı mərtəbədir. Anar yaradıcılığının həyat həqiqətləri ilə sıx cilalanmış folklorizmi 60-cı illər ədəbiyyatına təzə nəfəs gətirən yeni düşüncə modeli idi ki, sonradan o, ədəbiyyatın gələcək taleyində həlledici rol oynadı, onu xalqa sevdirdi və ona əbədiyaşar bir həyat bəxş etdi.

"Beşmərtəbəli evin altıncı mərtəbəsi"nin ədəbi aləmdə əks-sədası məlumdur ki, birmənalı deyildi. Ancaq cəmiyyətdəki çevrilişlər kimi, düşüncədəki çevrilişlər də heç də həmişə birmənalı qarşılanmır, həqiqətin bərpası yaxud üzə çıxması üçün müəyyən zaman tələb olunur. Zaman isə "Beşmərtəbəli evin altıncı mərtəbəsi"nin xeyrinə işlədi. Dövrü üçün ədəbiyyatın baş yaradıcılıq metodu olan - sosializm realizminin qəlibləri sökülüb parçalandı, sosialist gerçəklikləri sindromu tarixin arxivinə verildi. Ədəbiyyatımızda insan tale və həyatının dərin qatlarına nüfuz edən, onun daxili aləmini, psixoloji durumunu əks etdirən yeni ədəbi düşüncə 60-cı illər ədəbiyyatını doğurdu, tarixi zərurət həqiqətə çevrilib reallaşdı.

Anarın folklorizm ənənələri əsasında yazdığı və əslində mövzusunu xalq yaradıcılığı qaynaqlarından götürdüyü ikinci böyük əsəri "Ağ qoç, qara qoç"dur. Əgər yazıçı "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə gənc nəsillərin taleyi ilə bağlı narahatçılığı qələmə almışdırsa, "Ağ qoç, qara qoç"da cəmiyyət idarəçiliyinin daha ciddi problemlərini gündəmə gətirmişdir. Burada cəmiyyətin yetkin, kamallı, xalqın gələcək firavan həyatına fərqli prizmalardan baxan insanların taleyi öndədir. Anar Ağ Qoç və Qara Qoçun şəxsində elə bu həyatın gələcək yüksəlişinə, onların mübarizə ideallarına folklorizm çevrəsində nəzər yetirir, dərin təzad və ziddiyyətlər içərisindəki cəmiyyətin işıqlı sabahına bəslədiyi pozitiv ümidlərini oxucuları ilə bölüşür.

Əgər Anar ötən əsrin 60-cı illərinin başlanğıcında cəmiyyət həyatının üst qatında yaşayan görüntüləri bütün yasaq və qadağalardan yan keçərək qələmə alırdısa, "Ağ qoç, Qara qoç"da yaşadığı yeni dövrün inkişaf və gedişat problemlərini, ziddiyyət və təzadlarını gündəmə gətirir, şüuraltdakı neqativ düşüncənin gözəgörünməz mifologizmini yaradırdı. Bununla da Anar insanları qabaqcıl, işıqlı düşüncənin qorunub-saxlanmasına səfərbər olmağa çağırır. Yazıçı təkcə düşüncənin alt laylarındakı dəyərləri bərpa edib üzə çıxarmır, həm də cəmiyyətin üst düşüncə qatının deformasiyasından nigarançılığını ifadə edir. Bütün bunlar isə Anarın yaranmaqda olan ən yeni dövr ədəbiyyatına bəxş etdiyi folklorizm dəyərləri, yeni yaradıcılıq modelləri idi. Şübhəsiz ki, bu əsərlər sosialist realizmi metodundan sonra ölkəmizdə əsası qoyulan ədəbiyyatın - ən yeni dövr ədəbiyyatının ilkin, yetkin nümunələridir.

Milli ədəbi düşüncə tarixində ən yeni dövr ədəbiyyatının başqa qüdrətli nümayəndələrindən biri də xalq yazıçısı Elçindir. Ömrünün kamillik dövrünü yaşamaqda olan Elçin 60-cı illər ədəbiyyatının böyük yaradıcılarındandır. İlk qələm təcrübələrindən başlayaraq folklorizmdən istifadə onun əsərlərindən qızıl xətt kimi keçir. "Sarı pencək" hekayəsindən sonra Elçin yaradıcılığında milli özünüdərk, milli Mənə qayıdış, folklor ənənələrindən bəhrələnmə özünün tarixi-xronoloji ardıcıllığını demək olar ki, mühafizəkarlıqla qoruyub saxlamışdır. Sosializm realizmi metodunun ədəbiyyatımızda aparıcı mövqeyə keçməsi ilə bağlı milli ədəbi düşüncədə demək olar ki, öz dolğun mövqeyini itirib yoxa çıxan folklorizmi o, əlinə qələm aldığı gündən

mərhələ-mərhələ bərpa edən, ədəbi düşüncənin alt və üst qatlarındakı folklorizmin geniş və rəngarəng mənzərəsini əsərlərində əks etdirən ədiblərimizdəndir. O, ilk hekayələrindən başlayaraq nəsr və dram əsərlərində ardıcıl olaraq folklor ənənələrinə istinad edən, milli-mənəvi və əxlaqi dəyərlərimizi qabaqcıl dünyaya yüksək sənətkarlıqla təqdim edən yazıçılardandır. Ədəbiyyatımızda "Leyli-Məcnun" folklorizmi neçə yüz ildən bəri dünya xalqlarının diqqət mərkəzindədirsə, Elçinin "Mahmud və Məryəm"i (Əsli və Kərəmi) məhəbbət mifologizmi tolerantçılığa çağırış, milli ayrıseçkiliyə qarşı insanları mübarizəyə səfərbəredici gücə malik bədii düşüncə məhsulu kimi dünyada geniş tanınmaqdadır.

Ədibin "Ağ dəvə" əsərində, yaxud ayrı-ayrı zoomorfik obrazlar silsiləsi çevrəsində yaratdığı folklorizm dəyərləri öz təkrarolunmazlığı ilə seçilir.

Bütövlükdə isə Elçin yaradıcılığında folklorizmin elə görüntüləri önə çəkilir ki, onların arxasında adi, sadə insanların arzusu, düşüncəsi, bir sıra hallarda isə uğurlu-uğursuz taleyi dayanır, ibrətamiz həyat faktı kimi oxucusunu düşündürür, onu öz arxasınca aparır. Elçin xalqımızın milli dəyərlərinin daim keşiyindədir. O, əsərlərində neqativ halları yamanlayır, onların acı və ağrılarını folklorizm çevrəsində oxucusunun gözü qarşısında ustalıqla canlandırır, pozitiv məqamların isə insan həyatındakı və taleyindəki tutumunu, böyük nüfuzedici mövqeyini ümumiləşdirərək təqdir edir.

Göründüyü kimi, 60-cı illər ədəbiyyatı yüksək mənəvi-əxlaqi dəyərləri əhatə etməklə hər cür siyasi konyunkturalardan, şəxsiyyətə, azad düşüncəyə qarşı yönəlmiş hər cür zorakılıqlardan uzaq bir ədəbiyyat kimi yaranıb üzə çıxmışdır. Sovetlər birliyinin dağılması, müstəqilliyimizin bərpasından sonra ədəbiyyatımızın yeni inkişaf istiqamətinin müəyyənləşdirilməsi zərurəti barədə qarşıya təbii ki, suallar çıxır. Ən yeni dövr ədəbiyyatımız hansı ənənələrə söykənməli, hansı yaradıcılıq metodları əsasında öz inkişafını davam etdirməlidir? Bizcə cavab birmənalıdır: ən yeni dövr ədəbiyyatımız özünün tarixi varislik ənənələrini qoruyub saxlamalı, milli-mənəvi, əxlaqi dəyərlərlə yüksək azərbaycançılıq görüşləri qovşağında 60-cı illər ədəbi zəminin

həmin tarixi ənənələr zəmini üzərində bərqərar etdilər. Bu prosesi ardıcıl şəkildə izləyən akademik M. Arif yazırdı: "Həmin mərhələdə Azərbaycan nəsrinin bəhrələndiyi ən mühüm qaynaqlardan biri xalq ədəbiyyatıdır... Azərbaycan xalqının ədəbi ənənələrinin inkişafı da özünəməxsus bir varislik yolunun aparıcısı kimi diqqəti cəlb edir, onun başlıca xüsusiyyətinin dərinliyində isə zəngin folklor ənənələri aydın nəzərə çarpmaqdadır".

Göründüyü kimi, xalq yaradıcılığı ənənələri üzərində yaranıb yüksələn Azərbaycan ədəbiyyatında folklorizm yeni hadisə deyildi. O, ədəbiyyatımızda erkən orta əsr çağlarından xeyli qabaq formalaşıb ədəbi düşüncəmizə tarixi varislik ənənələri ilə bağlı olmuşdur. Sovetlər dönəmində sosializm realizmi yaradıcılıq metodunun və sovet ideologiyasının güclü təzyiqi altında ədəbiyyatımızdan sıxışdırılıb çıxarılsa da tamamilə məhv edilə bilməmişdir. Ədəbi düşüncənin alt qatında əski milli dəyər toplumu kimi folklor ənənələri çevrəsində qorunub saxlana bilmişdir. Münasib tarixi şəraitin yaranması ilə ədəbi yaddaşın saxlancından baş vuraraq ədəbiyyatımızda pillə-pillə, mərhələ-mərhələ öz yerini bərpa edə bilmişdir.

Müharibədən sonra, ötən yüzilliyin 50-ci illərindən başlayaraq repressiyalar burulğanından salamat çıxan, cəbhələrdə döyüş yolu keçən yaşlı və orta nəslin ədəbi simaları tarixən mövcud ədəbi ənənələri, o cümlədən folklorizmi yaradıcılıqlarında böyük fədakarlıqla bərpa etməyə başlamışlar. Bu illər isə nəzəri fikir tarixinə folklorizmin yenidən bərpası dövrü kimi daxil olmuşdur. Onun ədəbi düşüncədə bərpasında isə yenidən nəsrimizə gələn kənd mövzusu mühüm rol oynamışdır. Bu dövrün ədəbiyyatında iki kənd - müharibə illərində ön cəbhədə "döyüşən" kənd və müharibə ağrıları və ayrılıqlarını unuda bilməyib yeni yüksəliş yoluna çıxaraq "dəyişən" kənd vardı. Hər ikisi ədəbiyyata yeni mövzu, düşüncə və folklorizm ənənələri gətirməkdə idi. Akademik B. Nəbiyevin qeyd etdiyi kimi, "... Bütün bu dəyərlər 60-cı illərdə ədəbiyyata yeni düşüncə və nəfəsin gəlməsinin başlıca qaynaqlarından idi."

60-cı illər ədəbiyyatı ölkədə yaranan yeni tarixi şəraitə və əhvali-ruhiyyəyə köklənmişdi. Yasaqlara və qadağalara məruz qalmış xalqın uzun müddət ifadə edə bilmədiyi dəyərləri - özünüdərk, keçmişə qayıtma, əxlaqi saflığı önə çəkmə, fikir və düşüncə sərbəstliyi, psixoloji sarsıntıları görmək, onu dəyərləndirmək, insanın şəxsiyyətini zorakılıqlardan qorumaq, həyatı bəzəksiz-düzəksiz, olduğu kimi təsvir etmək və sairi toplum halında ədəbiyyata gətirmək arzuları ilə bağlı idi. Təbii ki, bütün bunlar ilk mərhələdə ədəbiyyatda üstüörtülü şəkildə, ədəbi düşüncənin alt qatında qorunub saxlanan folklorizm görüntüləri işığında yüksələn xətt üzrə əks edilməkdə idi. Həmin yaradıcılıq prosesində yuxarıda qeyd edildiyi kimi, ədəbiyyatımızın S. Rəhimov, Mir Cəlal, Ə. Vəliyev, Əbülhəsən, Mehdi Hüseyn və digər yaşlı nəslə məxsus sənətkarları ilə yanaşı, orta nəslin İ. Əfəndiyev, B. Vahabzadə, İ. Hüseynov, İ. Şıxlı, S. Qədirzadə, İ. Səfərli, M. Araz, Ə. Qasımov, Ə. Mustafayev və onlarla başqa sənətkarların iştirakı da fəal idi. Ancaq bir həqiqət inkaredilməzdir ki, 60-cı illər ədəbiyyatının yeni ədəbi düşüncə modeli kimi formalaşması gənc ədəbi qüvvələrin adları ilə daha çox bağlıdır. Təbii ki, bu sənətkarların hər biri 60-cı illər ədəbiyyatının yaranma və formalaşmasına özlərinin layiqli töhfələrini vermişlər. Onların hər birinin bu sahədəki fəaliyyətlərinin müxtəlif cəhətlərdən öyrənilməsinə günümüzdə ehtiyac böyükdür və əminəm ki, bu sahədə ən yaxın illərdə ədəbi tənqidimiz və ədəbiyyatşünaslığımız öz sözünü deyəcəkdir. Ancaq biz 60-cı illər ədəbiyyatında folklorizmdən danışdığımızdan onun ədəbi tənqidimiz və folklorşünaslığımız üçün daha yeni və aktual görüntülərini açıqlamağa imkan verən sənətkarların yaradıcılıq ənənələrinin bəzi xüsusiyyətlərindən, eləcə də həmin kontekstdə ədəbiyyatımızda özünü göstərən bəzi yabançı, təftişçi meyllərdən uzaq, yeni yaranmaqda olan neomodernist ədəbiyyatın perspektivlərindən müxtəsər şəklidə bəhs etmək istərdik.

Ilk öncə bir daha qeyd etmək vacibdir ki, 60-cı illər ədəbiyyatı ədəbi düşüncədə birdən-birə yaranan, "yoxdan var olan" ədəbiyyat deyildir. Bu, ədəbiyyatımızda mövcud ənənələrə, tarixi varisliyə söykənən, milli düşüncə zəmini üzərində yüksəlmiş yeni bir ədəbiyyatdır. Onun formalaşmasında qədim və orta əsrlərdən başlayaraq bütün sonrakı yüzilliklərdə yaranan zəngin ədəbi-mədəni irsimiz mühüm qaynaq olmuş, iyirminci yüzilliyin yaşlı və orta nəslinə məxsus bütün yaradıcı qüvvələr həmin ədəbiyyatın meydana çıxmasında bu və ya digər dərəcədə iştirak etmişdir. Ancaq çoxsaylı ədəbi qüvvələr içərisində 60-cı illər nəsli adlandırılanların bu ədəbiyyatın yaranıb meydana çıxmasında mühüm tarixi xidmətləri vardır. Onların içərisində Anarın, Elçinin, Ə. Əylislinin, İ. Məlikzadənin, M. Süleymanlının, S. Rüstəmxanlının, Z. Yaqubun və onlarla başqa şair və yazıçılarımızın adı haqlı olaraq ehtiramla çəkilir. Bütövlükdə isə 60-cı illərdə ədəbiyyatımıza gələn gənc ədəbi qüvvələrin ənənəvi folklorizm çevrəsində ədəbi düşüncədə milli-mənəvi və əxlaqi dəyərlərin, insan talelərinin, onun psixologiyasının əks olunmasında xidmətləri əvəzsizdir. Təbii ki, onların hər birinin yaradıcılığının bu istiqamətdə araşdırılmasına ehtiyac vardır. Biz isə hələlik bu sənətkarlardan yalnız ikisinin yaradıcılığının bəzi xüsusiyyətlərindən qısaca söz açmaq istərdik.

**AZAD NƏBİYEV**